## ***<u>Cinayət İşinin Araşdırılması – AİHM-nin 5-ci Maddəsi</u>***

*(tutulma, dərhal hakim qarşısına gətirilmə və məlumatlandırılma)*

Şənbə günü axşam, "X" kəndində evlərdən birində insan qətli ilə nəticələnən oğurluq hadisəsi baş vermişdir. Qonşu hadisə barədə polisə xəbər verir. Cinayət yerinə gələn polis paltarının üzərində aydın qan izləri, əlində kiçik televizor və bəzi gümüş əşyaları olan "A"-nın qarət olunan evdən qaçaraq uzaqlaşdığını görür. Həmin şəxs həbs olunur. Polis şöbəsinə aparılarkən yol boyu öz etirazını bildirməyə çalışan "A"-ya polis əməkdaşları tərəfindən bildirilir ki, o, qarətçi kimi şübhəli bilindiyindən şöbəyə aparılır.

Bazar günü səhər tezdən 'A' polis şöbəsinin kamerasında saxlanılır. Cümə axşamı onun yanına vəkil gəlir və onun işini gözətçi və digər üç saxlanılan şəxsin oduğu kamerada müzakirə edir. Cümə günü səhər o, hakimin yanına gətirilir və hakim onun saxlanmasını ağır cinayət işində şübhəli bilinməsi ilə əsaslandıraraq təsdiq edir.

Növbəti altı ay ərzində "A"-nın saxlanma müddəti hakim tərəfindən üç dəfə uzadılır. Sonradan işə baxan məhkəməyə sədrliyi də elə həmin hakim edir.
Saxlanma müddətində "A" məhkəmədən iki dəfə öz saxlanmasının nə dərəcədə qanuna uyğun olmasının nəzərdən keçirilməsini xahiş edir. Birinci dəfə onun müraciəti "kiminsə istəyi ilə əlavə dinləmə keçirməkdən daha vacib işlərimiz var" ifadəsi ilə məhkəmə tərəfindən rədd edilir. İkinci dəfə "A" müraciət etdikdən yalnız yeddi gün sonra dinləmə keçirilir. Saxlama təsdiq olunur.

***Suallar / problemlər:***

*5 Maddə altında hansı məsələlər qaldırıla bilər?*
1. *Polisin "A"-nı həbsdə saxlaması nə dərəcədə düzgündür?*
2. *Polis tərəfindən 'A'-yə həbs barədə kifayət qədər məlumat verilirmi?*
3. *Vəkilin "A"-nın yanına məhz Cümə axşamı, yəni xeyli müddət keçdikdən sonra gəlməsini necə səciyyələndirirsizniz?*
4. *Görüşün keçirilmə şəraiti 5-ci Maddənin tələblərinə uyğun gəlirmi?*
5. *"A" hakimin yanına vaxtında ("dərhal") gətirildimi?*
6. *Əgər vaxtında ("dərhal") gətirildisə, onun saxlanması nə dərəcədə düzgün əsaslandırılmışdır?*
7. *Məhkəmədən qabaq həbsdə saxlanmanın vaxtaşırı nəzərdən keçirilməsi barədə nə düşünürsünüz?*
8. *'A' həbsdə saxlanmasının qanuniliyinin baxılması üçün müraciət edə bilərmi?*
9. *İlk müraciətə etiraz edilməsinin səbəbini nədə görürsünüz?*
10. *Dinləmənin müraciətdən yeddi gün sonra keçirilməsi nə dərəcədə düzgündür?*

## *Cinayət işinin araşdırılmasında verilən suallara cavablar:*

*Sual 1:*
**Polisin "A"-nı həbsdə saxlaması nə dərəcədə düzgündür?**

Bəli, "qonşunun hadisə barədə polisə xəbər verməsi və cinayət yerinə gələn polisin paltarının üzərində aydın qan izləri, əlində kiçik televizor və bəzi gümüş əşyaları olan "A"-nın qarət olunan evdən qaçaraq uzaqlaşdığını görməsi" "A"-nın polis tərəfindən cinayətdə şübhəli bilinməsi üçün kifayət edən əsasdır.
Buna görə də bu halda 5-ci Maddənin (1) (c) şərtləri tam təmin olunmuşdur.

*Sual 2:*
**Polis tərəfindən 'A'-yə həbs barədə kifayət qədər məlumat verilirmi?**

"A"-ya verilən yeganə məlumatın ("polis əməkdaşları tərəfindən qarətdə şübhəli bilindiyi üçün şöbəyə aparılır) şöbəyə aparılarkən polis maşınında saxlanmasının səbəbinin bildirilməsi olduğunu nəzərə alaraq, bunu kifayət hesab etmək mümkün deyil. O, həbs olunmasının "hüquqi və faktiki əsasları" barədə məlumatlandırılmalıdır. (bax *Fox, Campbell and Hartley v. UK, appl n° 12244/86;12245/86;12383/86, 30 Avqust 1990*).

*Sual 3:*
**Vəkilin "A"-nın yanına məhz Cümə axşamı, yəni xeyli müddət keçdikdən sonra gəlməsini necə səciyyələndirirsizniz?**

Vəkilin "A" tərəfindən seçilməsindən və ya dövlət tərəfindən təyin olunmasından asılı olmayaraq, onun şübhəli bilinən "A" ilə saxlanma günündən 5 gün sonra görüşməsi çox gecdir. (bax *Murray v. UK, appl n° 14310/88, 28 Oktyabr 1994*).

*Sual* 4:
**Görüşün keçirilməsi şəraiti 5-ci Maddənin tələblərinə uyğun gəlirmi?**

Cinayətin törədilməsində şübhəli bilinən hər bir kəs seçdiyi və ya dövlət tərəfindən təyin olunan (mühakimə sisteminin tələblərinə uyğun olaraq) vəkildən hüquqi məsləhətlər almaq (digər haqlarla yanaşı) hüququna malikdir. Vəkillə təqsirləndirilən şəxs arasında keçirilən görüşlərin texniki şərtləri (həbs edən orqanın iştirakı xaricində) 5-ci (4) Maddədə əks olunmuşdur.
Mövcud vəziyyətdə 5-ci Maddənin (1) (c) şərtləri təmin olunmamışdır. (bax *S v. Switzerland, 12629/87, 28 Nov 1991, Öcalan v. Turkey, appl n° 46221/99, 12 Mart 2003*)

*Sual 5:*
**"A" hakimin yanına vaxtında ("dərhal") gətirildimi?**

"A" Cümə günündə saxlanması ilə hakimin yanına gətirilməsi 5 günlük gecikmə ilə icra olunmuşdur. Məhkəmə qərarından əvvəl azadlıqdan məhrum etmə şübhəli bilinən şəxsin dindirilməsi üçün tələb olunan vaxtdan artıq olmamalıdır – adətən bu, bir və ya iki gün davam edə bilər. Saxlama ilə məhkəmə baxışı arasındakı müddət beynəlxalq normaların pozulmaması şərtilə daha çox ola bilər (uzadıla bilər). Belə olan halda tələb olunan əlavə vaxt yaranmış vəziyyətin xüsusi tələbi kimi göstərilməlidir (bax *Brogan v. UK, appl n° 11209/84;11234/84;11266/84;11386/85 29 Nov, 1988*).
Beləliklə, "A" məhkəməyə vaxtında təqdim olunmuş hesab edilmir.

*Sual 6:*

**Əgər vaxtında ("dərhal") gətirildisə, onun saxlanması nə dərəcədə düzgün əsaslandırılmışdır?**

Saxlama müddəti bunun üçün müvafiq səbəblər olduğu halda uzadıla bilər (misal üçün şübhəli bilinən şəxsin aradan çıxması, məhkəmə prosesinə müdaxilə, təkrar cinayət törətmə təhlükəsi varsa).
Əsaslı sübut və dəlillər olmadığı təqdirdə sadəcə "ağır cinayətin törədilməsində şübhəli bilinmə faktı" bir insanın həbsdə saxlanma müddətinin uzadılması üçün əsas ola bilməz. (*Letellier v. France, appl n° 12369/86, 26 İyun 1991*)
"A"-nın qarət etmə və ev sahibinin qətlə yetirilməsində şübhəli bilinməsi və polis şöbəsində ona qarşı tutarlı dəlil və sübutların olması onun saxlanma dövrünün uzadılmasını əsaslı edir.

*Sual 7:*
**Məhkəmədən qabaq həbsdə saxlanmanın vaxtaşırı nəzərdən keçirilməsi barədə nə düşünürsünüz?**

Əgər saxlama dövrünün uzadılması üçün əsaslar olarsa, məhkəmədən qabaq həbsdə saxlamanın ümumi müddəti məqsədəuyğun olaraq cinayət işi məhkəmə tərəfindən müntəzəm fasilərlə baxılmaq üçün təqdim olunmalı və bu fasilələr bir və ya iki aydan çox olmamalıdır.
Beləliklə "A"-nın həbsdə saxlanmasının vaxtaşırı baxılması (yəni fasilələr və həbsdə ümumi saxlanma dövrünün 6 ay olması) 5-ci (3) Maddənin tələblərinin pozulması kimi qiymətləndirilə bilər.

*Sual 8:*
**A' həbsdə saxlanmasının qanuniliyinin baxılması üçün müraciət edə bilərmi?**

Bəli, saxlanılan hər bir kəsə həbsdə saxlanılmasının səbəbləri ilə tanış olmaq imkanı verilməlidir. Belə olan halda o, saxlanmanın milli qanunlara və Konvensiyaya uyğun olub-olmaması, saxlanmanın şərti xarakter daşıması barədə sual verə bilər. (bax *De Jong, Baljet and Van Den Brink v. Netherlands, appl n° 8805/79;8806/79;9242/81, 22 May1984, X v. UK,appl. No 7215/75 5 Nov 1981*)

*Sual 9:*
**İlk müraciətə etiraz cavabının verilməsinin səbəbini nədə görürsünüz?**

Saxlanmanın nə dərəcədə qanuni olmasını öyrənmək üçün edilən ilk müraciətə etiraz cavabının verilməsi 5-ci (4) Maddənin şərtlərinin pozulması kimi qiymətləndirilməlidir . (bax *Bezicheri v. Italy, appl n° 11400/85, 25 Oktyabr 1989*)

*Sual 10:*
**Dinləmənin müraciətdən yeddi gün sonra keçirilməsi nə dərəcədə düzgündür?**

Saxlamanın qanuni olub-olmamasını yoxlamaq olduqca vacibdir, lakin ərizədən sonra bir-iki həftənin keçməsi normal sayıla bilər.